bölmə

# 7

# Dəyişən Yer kürəsi

Yer kürəsi milyon illər boyu bir neçə inkişaf dövründən keçib. Bu dövrlər ərzində Yerin daxilində və səthində müxtəlif dəyişikliklər baş verib. Dağlarda, düzənliklərdə, çay və dəniz sahillərindəki fərqli ölçü və rənglərdəki süxurlar bu dəyişikliklərin izlərini daşıyır. Alimlər süxurları öyrənməklə qədim dövrlərdə Yer kürəsində baş vermiş və hazırda baş verən proseslərə dair məlumatlar əldə edirlər.



İnsanlar süxurlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Qədim insanlar süxurlardan kəsici alətlər düzəldir, orta əsrlərdə yaşayan sənətkarlar isə müxtəlif rəngli boyalar hazırlayırdılar. Müasir dövrdə çox sayda insanın yaşadığı böyük binalar tikmək üçün dayanıqlı süxurlardan istifadə olunur.
Alimlər süxurları öyrənərkən bəzən onların daxilində qədim dövrlərdə yaşamış və nəsli kəsilmiş canlıların qalıqlarına rast gəlirlər. Onlar süxurlardan və süxurların mühafizə etdiyi canlı qalıqlarından digər mənbədən əldə edilməsi mümkün olmayan məlumatlar öyrənirlər.

- **İnsanların süxurlardan istifadəsinə dair gündəlik həyatdan nümunələr göstərə bilərsinizmi?**
- **Sizcə, külək, yağıntı və temperatur süxurlara necə təsir edər?**
- **Hansı təbii proseslər süxurların yerini dəyişdirə bilər?**

## Bölmədə öyrənəcəksiniz

- Süxurlar təbii proseslər nəticəsində və uzun müddətdə yaranır
- Süxurların bir neçə növü var
- Təbiətdə süxurların dövranı baş verir
- Hava şəraiti süxurların formasına və tərkibinə təsir edir
- Münbit torpaqlar süxurlardan və canlı qalıqlarından yaranır
- Münbit torpaqlar insanların və digər canlıların yaşaması üçün vacibdir